# Verməərəm yadlara ölsəm də yenə. Cənnət qucağında ana vətənim



***Ağcabədi rayonunun Boyat kəndində doğulmuş, yazıb-yaratmış Rafiq Qarabağlı təkcə öz bölgəsində deyil, həm də işıqlı fikirlərilə, bir-birindən səmimi şeirlərilə onu tanıyan, mütaliə edən hər kəsin qəlbində özünə yer tapmışdı. Bu gün də oxucularının yaddaşında, ürəyində yaşayan Rafiq Qarabağlının şeirlərindən nümunələri oxucularımıza təqdim etməklə bir daha onu xatırlayırıq. Tanrı dərgahında olan ruhunun şad olmasını istəyirik. Bilirik ki, şeirləri yaşadıqca o da yaşayacaq.***

*Rafiq QARABAĞLI*

### ANA VƏTƏNİM

Ey gözümün nuru, canım, ciyərim,
Namusum, qeyrətim, şanım, şöhrətim.
Min arzu diləyim, xoş gələcəyim,
Döyünən ürəyim ana vətənim

Göz açıb qoynunda vuruldum sənə,
Hər qarış torpağın şirindi mənə.
Verməərəm yadlara ölsəm də yenə.
Cənnət qucağında ana vətənim.

Rafiqəm hər zaman sevirəm səni,
Nə olar, bu qədər yandırma məni.
Varmı bu dünyada səni sevənin,
Məndən də çox görən - Ana vətənim.

### BÖYÜRTKƏN KOLU

Əkərdim bağımda böyürtkən kolun,
Edərdim qulluğun, sevərdim boyun.
Görsəydim saralıb, əyibsə boynun,
Açardım ağzını dərin quyunun.

Çəkərdim dibinə tökərdim suyun,
Səhmana salardım qanad-quyruğun.
Bilirdim xeyirli bitki olduğun,
Dar günü vəfasın da gördüm kolun.

Kəndlərə çəkmişdi, düşmən qoşunun,
Həddini aşmışdı, o günü quzğun.
Sıldırım yerlərdən yaranan üçqun,
Alırdı qorxudan insanın huşun.

Qan idi dodağı gələn bayquşun,
Aslan yuvasına vururdu başın.
Çatırdı alnını, qıyırdı qaşın,
Sormazdı gördüyü bədənin yaşın.

Gördüyüm onları mən aralıdan,
Qaçmaq istəyirdim onu canımdan,
Boynuma dolandı qəfil böyürtkən,
Sarıldı ortama, tutqu qolumdan.

Ayıra bilmirdim onu canımdan,
Soyuq tər basmışdı məni qorxudan.
Sanki gizlədirdi məni böyürtkən,
Əsirdi yarpağı yox idi tufan.

Qorxsa da nə qədər o da yanğından,
Qaçmaq istəmirdi bir an obadan.
Müqəddəs torpağa and içmiş kimi,
Qoruyurdu yerini, yurdunu o da.

### QARABAĞ

Əsirlərin sınağından keçmişəm,
Ulu Göyçə, Borçalını itirmişəm.
Verdini, İrəvanı, Zəngəzuru vermişəm,
Qarabağım bilki səni sevirəm.

Sınamışıq dostumuzu davada,
Nə yaxşıki tək deyilik meydanda.
Neçə ildir döyüşürük yadlarla,
Ax, nə namərd düşmən gördüm davada.

Oxumayır, gülməyirsən o vaxtdan,
Danışmayır, gülməyirsən nə vaxtdı.
Qolu bağlı, bəxti qara pəhləvan,
Yad əllərdə səni qoyan deyiləm.

### VƏTƏNİMİN BÜLBÜLLƏRİ DANIŞIRMIŞ

Mənim gözəl vətənimin,
Bülbülləri danışırmış.
Cəh-cəh vurub oxuyanda,
Pərvanə tək alışırmış.

Səhərin gülşən çağında,
Bağı seyrə çıxan zaman.
Bülbül qondu bir budağa,
Oxudu o yana-yana.

Dedi:
Cəh-cəh vurub mən budaqda,
Söyləyəcəm tapmacanı.
Fikirləşib desən cavab,
Açacağam bağlamanı.

O, nədir ki, qolu bağlı,
Qalıb yadlar umuduna,
Bayquşlar da zara gəlib,
Ağlayırlar yuvalarda.

Sehirli bu tapmacanın
Hiddətindən donub qaldım.
Öz-özümü qınayaraq,
Utanaraq yerə baxdım.

Ayrı düşmüş yuvasından,
Bülbülümü qucaqladım.
Danışdığı tapmacanın,
Nə olduğunu anladım.

Quş dililə dayanmadan,
Söyləyirdi tapmacanı.
Olduğu tək çatdırırdı,
Gördükləri məqamları.

İnsafdırmı gəlin baxın,
Qarabağım qəfəsdədir.
O, qəfəsin zəncirini,
Deyin kimlər kəsməlidir?

Görün bircə neçə vaxtdır,
Qalıbdır o yana-yana.
Göz yaşları axıdaraq,
Baxır Oğuz yurdlarına.

Yığılıbdır yağılar da,
Vurnuxurlar obalarda.
Tülkü təki vıqqıldaşıb
Haykırırlar kahalarda.

Darışıblar dağlarına,
Bir nəfəsə yana-yana.
Xəzinələr axtarırlar,
Çalışırlar varlanmağa.

İlan kimi qıvrılırlar,
Dağı, dağı yalayırlar.
Kimsəsiz qalmış evləri,
Söküb yaman daşıyırlar.

Hələ bil ki, söyləmirəm,
Əsirlərin əziyyətin.
Körpə-körpə təhqir olub,
Qurban kimi kəsilənləri.

Qurumuşdu dodaqları,
Hiddətindən bülbülümün.
Göz yaşıyla oxuyurdu,
Qarabağda gördüklərin.

Bülbül belə oxuyaraq,
Məni tamam heyran etdi.
Nəsihətli sözlərilə,
Ürəyimi al qan etdi.

Quş dilini bilənləri,
Eşitmişdim, görməmişdim.
Bu dillərin sehrini,
Ax, bu qədər bilməmişdim.

Rafiq deyir bu sözləri,
Bülbülün, gülün diliylə.
Gecə-gündüz o ağlayır,
Qarabağın həsrətilə.

Alınar bir gün Qarabağ,
Qayıdar o ulu dağlar.
Paylarını almalıdır,
Uluya-uluya yağılar.

### SƏRHƏDDƏN BAŞLAYIR VƏTƏN

Sərhəddən başlayır vətən göyləri,
Nizami qeyrəti, hərarətləri.
Min arzu diləyi, toy-düyünləri,
Yarılsa başlayar məşaqətləri.

Budur qarşısında durmuşuq onun,
Əsgər libasında dəyişib donun.
Yağılar yerində alacaq payın,
Nizami orduyuq buyursa qanun.

Sərhəddi olmayan hər hansı vətən,
Geyinər əyninə narıncı kəfən.
Sınar qanadları, sınar qolları,
Üfunət içində olar yolları.

### ÜÇ RƏNGLİ BAYRAQ

Üç rəngli bayrağa gəlin and içək,
Onun ətrafında möhkəm birləşək.
Nizami ordumuz yaransın qəşəng,
Azadlıq bayrağın ürəkdən sevək.

Vətən torpağına hörmət eyləyək,
Xainin qanını torpağa tökək.
Koroğlu yurduna gəlməyi artıq,
Yağılar başından çıxarsın gərək.

Eşitsin namərdlər aslan səsini,
Qorxudan dayansın vuran ürəyi.
Partlasın dodağı, qanasın dili,
Görəndən türkləri batsın nəfəsi.

Yığılsın meydana dəliqanlılar,
Qılınc zərbəsindən kəsilən başlar.
Görsünlər onları türklər ağladar,
Qoparıb başların havaya atar.

Xalqımız çox çətin günlər yaşadı,
Göy, yaşıl, qırmızı rəngə boyandı.
Türklüyün saxlayıb qorudu dinin,
Azadlıq qanını sel tək axıtdı.

### A SON ZƏNG

Nədir səsin bu gün düşüb aləmə,
Bağrımı qan etməginən, a son zəng.
Nisgil odun vurmaginən sinəmə,
Dağlama, gəl sən sinəmi, a son zəng.

Mən bilirəm bu ayrılıq qəmidir,
Belə qəmli olmaginən, a son zəng.
Bütün ellər görüşünə gəlibdir,
Mübarəkdir qədəmlərin, a son zəng.

Mən Rafiqəm deyirəm son sözümü,
Xoşbəxt olsun meyvələrin, a son zəng.
Tutub bu gün mən onlara üzümü,
Xoş arzular diləyirəm, a son zəng.

### HƏKİM

Həkim oldum şəfa verəm xəstəyə,
Arxa olam, dayaq olam ölkəyə.
Həkim oldum min arzuya, diləyə,
Gərək olam hər yaralı kimsəyə.

Həkim oldum şəfa tapsın xəstələr,
Göz yaşları dilə gəlsin kəlmələr.
Xoş arzular dilə gəlsin kəlmələr,
Düşməsinlər ocaqlardan dərbədər.

Həkim oldum sənətimlə öyünəm,
Şəfa verəm xəstə könlü devirəm.
İlmə vuram tikişləri çevirəm,
El içində gündən-günə sevilәm.

Yaşa könlüm, yaşa Rafiq babayam,
Bu sənətə qiymət üçün fədayam.
Yaz könlünü nişan alsın kəlmələr,
Həkimləri sevsin bütün bəndələr.